Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramınız mübarək!
www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-22 (1761) 30 dekabr 2022-ci il



## ATU-nun rezidentləri dünyanın ən yaxşı universitetlərində təcrübə keçir

**Rektor, professor Gəray Gəraybəyli: Azərbaycanda tibb təhsilinin ikipilləli olması əlavə məsuliyyət yaradır**

səh. 3

### Şəhid məzunlarımızın uşaqları Yeni il şənliyində

səh. 2

### Oftalmologiya və III Cərrahi xəstəliklər kafedralarının 100 illiyi qeyd olunub

səh. 5

### Əməkdaşımız Şuşada "Ekoterrora yox!" deyib

səh. 7




### Təcili yardım sisteminin təkmilləşdirilməsinə dair simpozium keçirilib

Rektor, professor Gəray Gəraybəyli: İlk dəfə olaraq ATU-da Təcili yardım kafedrası təsis edilib

səh. 2

### Qış imtahan sessiyası diqqət mərkəzində

*İmtahan nəzarətçiləri və testoloqlarla müzakirələr aparılıb*

səh. 2

### Uşaqlarda şəkərli diabetə getdikcə daha çox rast gəlinir

*Anadangəlmə hipotireoz bütün dünyada aktual problem olaraq qalır*

səh. 6



### Universitetimizdə mövcud tədris proqramlarına yenidən baxılır

Elmi katib, professor Nazim Pənahov xüsusi komissiyanın fəaliyyət istiqamətlərini açıqlayır

səh. 4

# Təcili yardım sisteminin təkmilləşdirilməsinə dair simpozium keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: İlk dəfə olaraq ATU-da Təcili yardım kafedrası təsis edilib




**ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyələşdirdiyi və "Azərbaycanda pandemiyaya cavab tədbirləri" layihəsi çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Azərbaycan Səhiyyə Nazirliyi, İcbari Tibbi sığorta üzrə Dövlət Agentliyi (İTSDA) və TƏBİB-in birgə təşkilatçılığı ilə təcili yardım sisteminin (TYS) təkmilləşdirilməsi həftəsi keçirilib. Bu silsilədən növbəti hibrid simpozium dekabrın 16-da Azərbaycan Tibb Universitetində baş tutub.**

ATU-nun rektoru, professor Gəray Gəraybəyli simpoziumda açılış nitqi ilə çıxış edib. Tədbir iştirakçılarını salamlayan rektor son dövrlərdə səhiyyəmizdə aparılan islahatların uğurlu nəticələrinə toxunaraq, insanlara göstərilən ilkin tibbi xidmətin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldığını vurğulayıb: "Bildiyiniz kimi, Azərbaycan səhiyyəsinin inkişafı hər zaman ölkə rəhbərliyinin, eləcə də dövlətimizin diqqət mərkəzindədir. Səhiyyədə gedən dəyişikliklər və islahatlar müsbət nəticələri ilə göz qabağındadır. İslahatlarin ən əsas məqsədi Azərbaycanda səhiyyə xidmətini dünya standartlarına çatdırmaqdır. Bu sahədə çalışan nüfuzlu beynəlxalq təşkilatlarla olan əlaqələrin inkişafı, onların yüksək təcrübələrinin Azərbaycana gətirilməsi prioritet məsələlərdir. Sevindirici haldır ki, Azərbaycan Tibb Universiteti 30-dan artıq ölkənin 100-ə yaxın beynəlxalq təşkilatı ilə əməkdaşlıq edir".

Bu təşkilatlar içərisində Ümumdünya Səhiyyə Təşkilatının və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin fəaliyyətini yüksək qiymətləndirən rektor, pandemiya dönəmində həyata keçirilən layihələrin əhəmiyyətini xüsusi qeyd edib. Bildirib ki, aparılan islahatların vacib istiqamətlərindən biri də təcili yardım sisteminin təkmilləşdirilməsidir. Məhz bu nöqteyi-nəzərdən, simpoziumda çox vacib bilgilərin veriləcəyi və aktual problemlərə dair səmərəli müzakirələr aparılacağına əminliyini söyləyib. Rektor ATU Böyük Elmi Şurasının qərarı ilə universitetdə ilk dəfə olaraq Təcili yardım kafedrasının təsis edildiyini, növbəti ildən tələbələrimizə ayrıca fənn kimi tədris olunacağını söyləyib. O, ÜST tərəfindən təşkil olunan layihələrdə Azərbaycan Tibb Universiteti tələbələrinin, məzunlarının və həkimlərinin həmişə həvəslə iştirak etdiyini vurğulayıb və simpoziumun işinə uğurlar arzulayıb.

ÜST-ün Azərbaycandakı nümayəndəsi Hande Harmancı təcili yardım sisteminin səhiyyənin ən vacib hissəsi olduğunu və bütün dünyada insanlara səhiyyənin ilk əlaqə nöqtəsi kimi xidmət göstərdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, aşağı və orta gəlirli ölkələrdə ölümlərin təxminən yarısı və əlilliyin üçdə bir hissəsi effektiv təcili yardımın tətbiqi ilə aradan qaldırıla bilər: "COVID-19 pandemiyası zamanı təcili tibbi yardım xidmətlərinə olan tələbatın kəskin artması bir daha göstərdi ki, TYS ictimai səhiyyə böhranlarına qarşı mübarizədə də böyük əhəmiyyətə malikdir. Ümumdünya Səhiyyə Təşkilatı "Azərbaycanda pandemiyaya cavab tədbirləri" layihəsi vasitəsilə təcili yardım sistemi və xidmətlərinin, bu sahədəki təlimlər və standartların təkmilləşdirməsini dəstəkləməyi nəzərdə tutur. Bu məqsədlə dekabrın 12-də "Azərbaycanda təcili yardım sistemlərinin təkmilləşdirilməsi həftəsi tədbirləri"nə başlanılıb. Həftənin məqsədi təcili yardım sistemləri sahəsində Azərbaycanın gələcəyə baxışını müzakirə etmək, bu sahədə təlimlər keçmək, eləcə də, insanların həyatını xilas etmək üçün kardiopulmonar resusitasiya vərdişlərinin öyrənilməsinin vacibliyi haqqında ictimaiyyəti məlumatlandırmaqdır".

4 gün ərzində 70-dən çox səhiyyə və qeyri-səhiyyə işçisinin Yeni Klinika, Kliniki Tibbi Mərkəz və Sumqayıt Təlim, Simulyasiya və Qiymətləndirmə Mərkəzindəki təlimlərə qatıldığını bildirən xanım Harmancı, bu simpozium və işçi qrupun görüşlərinin təcili tibbi yardım işçilərinin, səhiyyə orqanlarının, qərar qəbuledici şəxslərin və ictimaiyyətin bu sahədə birgə çalışmasını təşviq edəcəyinə inandığını söyləyib.

Sonra tədbirdə səhiyyə nazirinin müavini Nadir Zeynalov çıxış edib. ÜST-ün təcili tibbi yardımın təkmilləşdirilməsi ilə bağlı hər zaman Azərbaycana dəstək verdiyini deyən nazir müavini bildirib ki, səhiyyə sistemi insanları narahat edən təcili sağlamlıq məsələlərinə nə qədər çevik cavab verərsə, bir o qədər vətəndaşların məmnunluğu təmin olunar: "Ölkəmizdə son illər səhiyyə sistemində bir çox islahatlar aparılıb. İlk növbədə bu, səhiyyənin maliyyələşməsinə aiddir. Bununla yanaşı, təcili yardım sisteminin təkmilləşdirilməsidir. Çox müsbət haldır ki, ÜST buna kömək edəcək bir layihə təqdim edib. Bu sahədə 3 əsas istiqamətdə iş aparılır: xəstəxanayaqədərki mərhələdə təcili yardımın təkmilləşdirilməsi, xəstəxana daxilində təcili tibbin müasir standartlara çatdırılması və təcili tibbi yardımın tədrisi. Bu ilin fevralından görülmüş tədbirlər çərçivəsində təlimçi və təlimə cəlb olunan komandalar müəyyən edilib. Bu müddət ərzində komanda üzvləri Türkiyədə bir aylıq kursda olub, müəyyən yenilikləri ölkəmizə gətiriblər".

Əsas məqsədi təcili yardım sistemləri sahəsində Azərbaycanın gələcəyə baxışını müzakirə etmək və təkmilləşdirmək olan simpoziumun açılışında USAID-in Missiya direktoru Maykl Nirbas (Michael Nehrbass), İTSDA və TƏBİB-in nümayəndələri də çıxış ediblər. Həmçinin təcili yardım şöbələrinin müdirləri, həkimləri və digər səhiyyə işçiləri, eləcə də Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, İTSDA və TƏBİB-in bu sahə üzrə qərarvericiləri, xəstəxana direktorları, universitet müəllimləri və beynəlxalq təşkilatların əməkdaşlarının qatıldığı, hibrid formatda keçirilən simpoziumun gedişini 200-dən çox iştirakçı ilə yanaşı, Zoom platforması vasitəsilə tədbirə qoşulanlar da izləyiblər.

Simpozium öz işini panel iclaslarla davam etdirib.

**Azərbaycan Tibb Universitetinin rəhbərliyi, o cümlədən universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri Cahangir Qasımovun təşəbbüsü ilə şəhid hərbi həkimlərin azyaşlı uşaqları üçün Yeni il şənliyi keçirilib.**

# Şəhid məzunlarımızın uşaqları Yeni il şənliyində



ATU-nun 44 günlük Vətən müharibəsində şəhid olmuş məzunlarının övladlarının və tələbələrimizin iştirak etdiyi tədbirdə universitetin "Şəfa" xalq çalğı alətləri ansamblının nümayəndələri musiqilər səsləndiriblər. Tələbələr uşaqları əyləndirib, Şaxta Baba rolunda onlara müxtəlif hədiyyələr veriblər. Həmkarlar İttifaqı Komitəsinin Rəyasət Heyətinin üzvü Səidə Hacıyeva tədbirin təşkilində xüsusi fəallıq göstərib.

Qeyd edək ki, ATU-nun rektoru, professor Gəray Gəraybəyli və universitetin Həmkarlar İttifaqı Komitəsi şəhid ailəsi üzvləri və qaziləri daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilir.

# Qış imtahan sessiyası diqqət mərkəzində





## İmtahan nəzarətçiləri və testoloqlarla müzakirələr aparılıb

**Payız semestrinin qış imtahan sessiyası ilə əlaqədar, Tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyev başda olmaqla, universitetimizin rəhbər nümayəndələrinin imtahan nəzarətçiləri ilə görüşü keçirilib.**

Görüşdə çıxış edən prorektor S.Əliyev imtahanların təşkili və gedişi, tələbələrin biliyinin qiymətləndirilməsində müəllimlərlə bərabər nəzarətçilərin üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb: "İmtahanın gedişinə nəzarət etmək çox ciddi işdir və yüksək diqqət tələb edir. Məhz bu baxımdan imtahan nəzarətçilərinin müəyyənləşdirilməsi üçün xüsusi seçim aparılıb. Tələbələrin əldə etdikləri biliyin düzgün qiymətləndirilməsi, imtahan nəticələrinin obyektiv olması məqsədilə son illər universitetdə çox işlər görülüb. Bu, kollektiv zəhmət tələb edən işin nəticəsinin yüksək səviyyəli olması üçün hər birimiz çalışırıq".

Sonra Tədris və təhsildə keyfiyyət şöbəsinin müdiri, dosent Kamandar Yaqubov imtahan sessiyası haqqında zəruri məlumatları açıqlayıb. Bu dəfə ATU-da imtahanların 29 dekabr 2022-ci il tarixindən 1 fevral 2023-cü il tarixinə qədər davam edəcəyini bildirib. Üzrlü səbəblərdən imtahana qatıla bilməyənlər üçün isə 3, 6 və 7 fevral tarixlərində yenidən sınaq təşkil olunacaq.

İmtahan Mərkəzinin rəhbəri Ülkər Cəfərova, imtahana nəzarət komissiyasının sədri Pəri İsaqova çıxışlarında imtahana hazırlıq prosesi haqqında danışıblar. Həmçinin imtahanda iştirak, nəzarətçilərin səlahiyyətləri, baş nəzarətçi və nəzarətçilərin vəzifələri, imtahanın gedişi, imtahanın nəticələrinə etiraz və digər əhəmiyyət kəsb edən məsələlər barəsində geniş məlumat veriblər.

Görüşün sonunda aralıq imtahanlarda fərqlənməyi bacaran imtahan nəzarətçilərinə təşəkkürnamələr təqdim olunub.

İmtahanlarla bağlı daha bir görüş testoloqlarla keçirilib. Prorektor S.Əliyev testlərin hazırlanması və tərtibatında kafedraların və testoloqların üzərinə böyük məsuliyyət düşdüyünü bildirib: "Onlar testləri elə seçib hazırlamalıdırlar ki, tələbə qoyulan sualın nədən ibarət olduğunu aydın şəkildə başa düşsün və düzgün cavab verə bilsin. Hər üç dildə testlər Tədris Proqramına uyğun hazırlanmalı, anlaşıqlı şəkildə olmalıdır. Təəssüf ki, bu barədə dəfələrlə deyilsə də, hələ də bəzi kafedralarda testin hazırlanması və tərtibində qüsurlar qalmaqdadır. Bu da istər-istəməz, tələbələrin haqlı olaraq Apellyasiya Komissiyasına şikayət etməsinə gətirib çıxarır".

Prorektor bu semestrdə belə qüsurların təkrarlanmayacağına inandığını bildirib, tədbir iştirakçılarına məsləhətlərini verib.

Dosent Kamandar Yaqubov testlərin tərtibi və hazırlanması ilə bağlı bəzi təkliflərini səsləndirib. Müalicə-profilaktika və Stomatologiya fakültələrində təhsil alan tələbələrin sayının çox olması ilə əlaqədar eyni fəndən imtahanların bir gündə başa çatdırılmasının mümkünsüzlüyünü bildirib. Bu səbəbdən imtahana daxil olan növbəti qruplara təkrar suallar düşməsin deyə, test bankına açıq və qapalı sualların çox salınmasını tövsiyə edib.

Ülkər Cəfərova isə İmtahan Mərkəzinin imtahanların keçirilməsinə tam hazır olduğunu diqqətə çatdırıb.

**Dekabrın 27-də Azərbaycan Tibb Universiteti Böyük Elmi Şurasının növbəti iclası keçirilib. İclasa sədrlik edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli əvvəlcə tədbir iştirakçılarının timsalında universitetin bütün əməkdaşlarını, o cümlədən tələbələri qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib, hər kəsə cansağlığı və uğurlar arzulayıb.**

# ATU-nun rezidentləri dünyanın ən yaxşı universitetlərində təcrübə keçir

## Rektor, professor Gəray Gəraybəyli: Azərbaycanda tibb təhsilinin ikipilləli olması əlavə məsuliyyət yaradır

Gündəlikdə duran məsələlər diqqətə çatdırıldıqdan sonra Rezidentura və magistratura şöbəsinin 2021-2022-ci illərə dair hesabatı dinlənilib.

Cəmiyyətin, sağlam ictimai mühitin formalaşmasında xüsusi rolu olan Azərbaycan səhiyyəsinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu deyən şöbənin müdiri, professor Məlahət Sultanova bildirib ki, səhiyyəyə göstərilən böyük diqqət və qayğı ölkəmizin daha da inkişaf etməsini şərtləndirən əsas amillərdəndir: "Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli səhiyyə sistemi hər şeydən əvvəl, səhiyyədə ənənəviliklə müasirliyin üzvi vəhdətinin təmin olunması, eləcə də Azərbaycan səhiyyəsinin dünya standartlarına uyğunlaşdırılması prinsiplərinə əsaslanır. Bu istiqamətdə universitet rəhbərliyinin dəstəyi ilə əsas məqsədimiz – rezidentura və magistratura təhsil pilləsində həkim-mütəxəssis hazırlığının səmərəliliyini artırmaq, verilmiş tibb təhsili sənədlərini beynəlxalq məkanda tanıtmaqdır".

Onun sözlərinə görə, şöbə ATU-ya qəbul olunan rezidentlərin və magistrantların tədrisinə, rotasiyalarının təşkilinə, rezidentlərin klinikada maksimum səviyyədə xəstələrlə təminatına nəzarət edir. Eyni zamanda universitet rəhbərliyi və Səhiyyə Nazirliyi tərəfindən qarşıya qoyulan tələbləri yerinə yetirərək, rezidentləri və magistrləri narahat edən problemlərin həlli üçün də lazımi tədbirlər həyata keçirir.

M.Sultanova hesabat ilində 881 rezidentin ATU-nun bazalarında və Səhiyyə Nazirliyinin əmri ilə təsdiq edilmiş bazalarda, 93 magistrin isə aidiyyatı üzrə kafedralarda təhsil aldığını, rezidentura üzrə 56, magistratura üzrə 9 ixtisasda tədris aparıldığını diqqətə çatdırıb.

Məruzədə 2021-2022-ci tədris ilinin buraxılış imtahanlarının yekunları da öz əksini tapıb. Belə ki, test mərhələsində iştirakı nəzərdə tutulan 271 rezidentdən 15 nəfəri imtahana gəlməmiş, imtahanda iştirak edən 256 rezidentdən 251 nəfəri imtahandan müvəffəqiyyətlə keçərək yekun attestasiyanın praktiki mərhələsinə buraxılmışdır. Yekun attestasiyanın test mərhələsinin nəticələrinə əsasən, 5 nəfər imtahandan keçə bilməmişdir. Praktiki mərhələdə iştirakı nəzərdə tutulan 251 rezidentdən 1 nəfər imtahanda iştirak etməmiş, 250 nəfər imtahandan müvəffəqiyyətlə keçmişdir. 2022/2023 tədris ilinə qəbulun nəticələrinə gəldikdə isə,






bu il ATU-nun rezidentura təhsil pilləsinə 272 rezident, rezidentura üzrə 23 əcnəbi vətəndaş qəbul olunmuşdur. Qəbul imtahanlarının I mərhələsi baza tibb fənləri, II mərhələsi isə kliniki fənlər üzrə aparılmışdır.

Şöbənin beynəlxalq əlaqələrinə də toxunan M.Sultanova, rezidentlərimizin ATU-nun müqavilələri çərçivəsində Türkiyənin ən tanınan universitetlərində rahat şəkildə rotasiya keçdiklərini və qazandıqları təcrübəni ölkəmizdə tətbiq edə bildiklərini vurğulayıb: "Hazırda 86 rezidentimiz xaricdə təhsilini davam etdirir ki, onlardan 63 nəfəri ATU-nun müqavilələri çərçivəsində, 23 nəfəri isə dəvət məktubu ilə rotasiyaya göndəriliblər. 2 nəfər ABŞ-da, 21 nəfər Almaniyada, digərləri isə Türkiyə Cümhuriyyətində rotasiya keçir. Artıq bir neçə ildir ki, Səhiyyə Nazirliyinin təklifinə əsasən, digər bazalardan olan rezidentlərin xarici ölkələrə rotasiyası da şöbəmiz tərəfindən həyata keçirilir".

M.Sultanova hesabat ili ərzində ATU-nun bazalarında rezidentlərlə keçirilən görüşlər, treninqlər, konfranslar, mühazirə və seminarlardan danışaraq, bu tədbirlərdə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlərin də iştirakını müsbət qiymətləndirib.

Mövcud problemlər üzərində isə ayrıca dayanaraq qeyd edib ki, narahatlıq yaradan ən böyük problem davamiyyətlə bağlıdır: "Bu məsələni araşdıranda məlum olur ki, rezidentlər ya başqa klinikalarda da işləyir, ya da xarici dövlətlərdə təhsillərini davam etdirmək üçün imtahan və kurslarda olurlar. Bəzən isə şöbələrində xəstə azlığına görə başqa bazalara rotasiyaya getməyə üstünlük verirlər. Çalışırıq ki, rezidentin təhkim olunduğu kafedra və ya müəssisənin rəhbəri ilə bu problemi anında həll edək".

O, ədəbiyyat və kurator probleminin də narahatlıq doğurduğunu söyləyərək, rezidentlərin qeyri-ciddi səbəblərdən kuratorlarını dəyişmək üçün müraciət etdiklərindən təəssüfləndiyini deyib. Çıxışına onu da əlavə edib ki, kuratorun rezidentə rəhbərlik etməsi rezidentura haqqında qanunla tənzimlənir: "Bu qanunun tələblərinə görə, kurator ikidən artıq rezidentə rəhbərlik edə bilməz. Rezident fərdi iş planının yerinə yetirilməsi ilə bağlı hər tədris ilinin sonunda kuratorun iştirakı ilə təhsil aldığı müəssisənin elmi (tibbi) şurası qarşısında hesabat verir. Hesabatda il ərzində görülmüş işlər əks etdirilməlidir. Hesabatı məqbul hesab edilən rezident dövri attestasiyaya buraxılır. Kuratordan asılı olmayaraq, rezident proqram üzrə təhkim olunduğu şöbədə digər manipulyasiya, müayinə və əməliyyatlarda iştirak edə bilər. Rezidentin fəaliyyətinə kurator nəzarət etsə də, o, şöbənin rezidentidir".

Ədəbiyyat probleminin isə daha çox dövri və yekun attestasiya imtahanlarında hiss olunduğunu bildirən M.Sultanova, rezidentlər üçün vəsaitlərin hazırlanmasının vacibliyini vurğulayıb.

Məruzədə rezidentlərin rezidenturadan xaric edilməsi məsələsinə də toxunulub. Qeyd olunub ki, 2 rezident inzibati xətaya görə, 48 nəfər isə öz xahişi ilə rezident sıralarından xaric edilib. Bu proses il ərzində tək-tək qeydə alınsa da, fevral-mart aylarında kütləvi hal alır. Çünki rezidentlər yenidən rezidentura imtahanına girmək istəyir. Bu halın səbəblərindən biri də rezidentlərimizin təhsil üçün xarici dövlətlərə üz tutmasıdır.

Şöbənin ikinci əsas fəaliyyət sahəsi olan magistraturanın istiqamətlərindən də söhbət açan məruzəçi, 2020-ci ildən magistraturaya iki yeni ixtisas - Səhiyyə menecmenti və Kliniki (Tibbi) psixologiya üzrə qəbul aparıldığını bildirib: "Hər iki ixtisas İctimai səhiyyə fakültəsinin nəzdində yaradılıb. Səhiyyə menecmenti üzrə 8, Kliniki psixologiya üzrə 10 nəfər magistrantımız təhsil alır. Hər ixtisas üzrə magistrantlar qış və yaz sessiyasında keçirilən fənlərdən imtahan verirlər. Keçirilən imtahanların formatı fənnə görə dəyişir. Tədris olunan qeyri-ixtisas fənləri üzrə imtahanlar İmtahan Mərkəzində, ixtisas fənləri üzrə imtahanlar isə şifahi bilet üzərindən canlı formatda müvafiq kafedrada keçirilir. İmtahanda semestr ərzində toplanan orta bal ilə birgə (qiymətləndirmə nəzərə alınmaqla toplam 50 bal), maksimal bal 100 təşkil edir. Hər fənn üzrə orta semestr balının nəticələrini əks etdirən imzalı blanklar müvafiq kafedralara göndərilir. Davamiyyətdə imtahana giriş üçün 20% limit qüvvədədir (20%-dən çox dərsdə iştirak etməyən magistrant imtahana buraxılmır). Magistrantların müdafiəsi müvafiq İxtisaslaşdırılmış Müdafiə Şurasının iclasında təşkil olunur".

Çıxışının sonunda qazanılan uğurlara baxmayaraq, hələ görüləcək işlərin də çox olduğunu söyləyən M.Sultanova, respublikamız üçün xüsusi əhəmiyyətə malik olan rezidentlərin və magistrlərin təhsil səviyyəsinin yaxşılaşdırılması və hazırlığı istiqamətində şura üzvlərinin təklif və rəylərini eşitmək istədiyini bildirib.

Məruzə ətrafında çıxış edən II Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Nailə Sultanova, Əczaçılıq kimyası kafedrasının müdiri, professor Tahir Süleymanov və Tədris Stomatoloji Klinikanın direktoru, dosent Mahir Səfərov rezidentlərin iş prinsipindən, aparıcı mütəxəssislərin rəhbərliyi altında müalicə işi ilə məşğul olan rezidentlər üçün əlverişli şərait yaratmağın zəruriliyindən söhbət açıblar. Hesabat məruzəsini qənaətbəxş qiymətləndirərək təkliflərini irəli sürüblər.

Müzakirələri yekunlaşdıran professor Gəray Gəraybəyli artıq10 ildən çoxdur ki, Azərbaycanda tibb təhsilinin ikipilləli olmasının əlavə məsuliyyət yaratdığını vurğulayıb. Bildirib ki, vaxtilə internaturanı bitirən həkimlərə tələbat böyük idisə, bu gün rezidenturanı bitirənlərə tələbat artıb.

Bu istiqamətdə ciddi iş aparıldığını və yeni islahatların gözlənildiyini söyləyən rektor, hələ də müəyyən problemlərin mövcudluğuna diqqət çəkib. Hazırda III kursu bitirən tələbənin rezidenturaya qəbul imtahanında iştirak edə bilməsini isə müsbət qiymətləndirərək qeyd edib ki, əgər tələbə məqbulları verib lazımi balları toplayarsa, həmin nəticələr 5 il müddətində qüvvədə qalır. Yəni universiteti bitirdikdən sonra rezidenturaya qəbul zamanı imtahanın I mərhələsindən azad olunur.

Professor G.Gəraybəyli tələbələrə belə bir hüququn verilməsinin rezidenturaya qəbul imtahanlarının ümumi nəticələrinə də müsbət təsir göstərdiyini diqqətə çatdırıb. Xatırladıb ki, ötən il imtahanların I mərhələsində iştirak üçün müraciət edənlərin sayı 900 nəfərdən artıq olmuşdu: "Çox təəssüf ki, onlardan yalnız 197 nəfəri 40 bal həddini keçə bilmişdi. Ancaq nəticələri təhlil edərkən bizi sevindirən bir mənzərə ilə qarşılaşdıq. Məlum oldu ki, 197 nəfərin təqribən 46 faizi proqramların, imtahanların dəyişməsini, aparılan islahatları öz üzərlərində hiss edən universitetimizin III, IV kurs tələbələridir".

Çıxışında nizam-intizam məsələsinin vacibliyini önə çəkən rektor, bəzi rezidentlərin özəl klinikalarda qeyri-qanuni həkimlik fəaliyyəti ilə məşğul olmasını ciddi qanun pozuntusu kimi səciyyələndirib. Kuratorların və bazaların dəyişdirilməsi ilə bağlı müraciətlərin və rezidentlərin rezidenturadan xaric edilməsinin əsas səbəblərinə də aydınlıq gətirən universitetin rəhbəri şura üzvlərinə yeni kadr dəyişiklikləri haqqında da məlumat verib.

ATU-nun professor-müəllim, tədris-köməkçi, mühəndis-texniki heyəti və inzibati-təsərrüfat işçilərinin vəzifə maaşlarının 2023-cü il yanvarın 1-dən orta hesabla 20%, əlavə əməkhaqqının isə 10% artırılması təklifini təsdiqləyən Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# ATU Türk Universitetlər Birliyinin yığıncağında təmsil olunub

**Türk Dövlətləri Təşkilatı Türk Universitetlər Birliyinin VI ümumi yığıncağı bu il Qazaxıstanın Türküstan şəhərində baş tutub. Ahmet Yesevi Universitetinin ev sahibliyi ilə keçirilən tədbirdə Türkiyə, Qazaxıstan, Özbəkistan, Azərbaycan, Qırğızıstan və Macarıstandan 50-dən çox rektor və universitet nümayəndələri təmsil olunub. Toplantıda Azərbaycan Tibb Universitetinin Elmi işlər üzrə prorektoru Rauf Bəylərov da iştirak edib.**




Türk Dövlətləri Təşkilatı Baş Katibinin müavini Ömər Kocamanın sədrlik etdiyi tədbirin açılışında Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun videomesajı səsləndirilib. Türk Universitetlər Birliyinin yığıncağında gündəlikdəki məsələlər müzakirə edilib, quruma yeni üzvlərin qəbuluna səs verilib, bəzi universitetlər arasında qarşılıqlı əməkdaşlığa dair protokollar imzalanıb.

Qeyd edək ki, 2012-ci ildə yaradılmış Türk Universitetlər Birliyinin əsas məqsədi türk dünyası ölkələri arasında ali təhsil sahəsində iş birliyini həyata keçirməkdən ibarətdir. Hazırda qurumun 50-yə yaxın üzvü var.

# Tibb bacısı və mamalıq sahəsində yeniliklərə dair simpozium

**"Tibb bacısı və mamalığın gücləndirilməsi üzrə Azərbaycan Simpoziumu" keçirilib. Simpozium ÜST-ün Azərbaycan nümayəndəliyi tərəfindən Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) və TƏBİB-lə əməkdaşlıq şəraitində təşkil olunub.**



Açılış mərasimində ÜST-ün eksperti dr. Halil İbrahim Durak, Səhiyyə Nazirliyinin Səhiyyənin təşkili şöbəsinin müdiri dr. Fazil Hüseynbəyov, İTSDA-nın Analitika və statistika şöbəsinin müdiri dr. Rəşad Çobanlı, TƏBİB-in icraçı direktorunun müavini dr. Anar İsrafilov və Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin dekanı dr. Anar Ağayev çıxış ediblər.

Tibb bacısı və mamalar, elm adamları, tələbələr və qərarverici şəxslərin qatıldığı simpozium çərçivəsində panel müzakirələri, forum və təlim kursları baş tutub. 12 mövzuda keçirilən kurslarda 300-dən çox tibb bacısı və mama iştirak edib.

Simpozium tibb bacısı və mamalıq təcrübəsi və təhsilində yeniliklərin paylaşılması, tibb bacısı və mamalar, ekspertlər və qərarverici şəxslər arasında fikir mübadiləsinin genişləndirilməsi, regional və beynəlxalq səviyyələrdə tibb bacıları və mamalar arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin gücləndirilməsi məqsədini güdüb.

# Universitetimizdə mövcud tədris proqramlarına yenidən baxılır

## Elmi katib, professor Nazim Pənahov xüsusi komissiyanın fəaliyyət istiqamətlərini açıqlayır

**ATU-da əsas (baza) ali tibb təhsilinin ixtisaslar üzrə mövcud təhsil proqramlarına yenidən baxılması və yeni ixtisasların açılması məqsədilə rektorun əmri ilə komissiya yaradılıb. Komissiyanın sədri, ATU-nun Elmi katibi, professor Nazim Pənahovla müsahibəni təqdim edirik.**



**- Bu komissiyanın yaradılması hansı zərurətdən irəli gəldi?**

- Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları 16.11.2018-ci il tarixində "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi barədə 711 saylı Sərəncam imzalayıb. Bu sərəncamda ölkəmizdə ali təhsilin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, qloballaşma şəraitində yeni iqtisadi çağırışlara uyğun rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanması, insan kapitalının davamlı və dayanıqlı inkişafına nail olunması üçün ölkəmizdə ali təhsilin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi ali təhsil müəssisələri qarşısına qoyulan önəmli məsələlərdir. Bu zaman, prioritet sahələr kimi, tibb və səhiyyənin seçilməsini nəzərə alaraq, ixtisaslar üzrə təhsil proqramlarının beynəlxalq təcrübədə öyrənilərək yenilənməsi strateji planlardan biridir. Cənab Prezident adıçəkilən Dövlət Proqramında Azərbaycanın ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsini, ölkənin inkişaf prioritetlərinə uyğun ixtisaslar üzrə ali məktəblərimizdə tədrisin dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğun olaraq təşkilinin təmin edilməsini, respublikamızın ali təhsil müəssislərində tədris olunan ixtisas proqramlarının beynəlxalq akkreditasiyasına nail olunmasını ali təhsil müəssisələri qarşısında tələb kimi qoyub.

Bu baxımdan, Azərbaycan Tibb Universitetinin təhsil proqramlarının təkmilləşdirilməsi və dünya təhsil məkanında olan aparıcı universitetlərin proqramlarına uyğunlaşdırılması məqsədilə, təhsil proqramlarında 2020/2021-ci tədris ilindən etibarən dəyişikliklər aparılıb və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28.06.2020-ci il tarixli F-386 nömrəli qərarı ilə əsas (baza) ali tibb təhsilinin müxtəlif ixtisaslar üzrə yeni təhsil proqramı təsdiq edilib.

Bildiyiniz kimi, 2021-ci ilin noyabr ayında respublikamızın ali təhsil müəssisələri arasında ilk dəfə olaraq, bizim universitetimiz üç fərqli istiqamət – Tibb, Stomatologiya və Əczaçılıq proqramları üzrə Beynəlxalq Akkreditasiya və Reytinq Agentliyi tərəfindən akkreditasiyadan uğurla keçib. Təbii ki, akkreditasiyanı aparan təşkilatın xarici ekspertlərinin bu zaman bəzi tövsiyələri də olmuşdu. Bu baxımdan, mövcud proqramların fərqli aspektlərdən dəyərləndirilməsi zərurəti yaranmışdı. Hörmətli rektorumuz da bu zərurətdən çıxış edərək, yuxarıda qeyd edilən komissiyanın yaradılması barədə əmr imzalayıb.

**- Komissiyanın tərkibinə kimlər daxildir?**

- ATU rektorunun 23 fevral 2022-ci il tarixli 154/T N-li əmri ilə yaradılan bu komissiyanın tərkibinə məndən başqa, Tədris şöbəsinin müdiri, dosent Kamandar Yaqubov, Keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov, II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli, İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev, Stomatologiya fakültəsinin dekanı, dosent Səid Əhmədov, Əczaçılıq fakültəsinin dekan müavini Esmira Hacıyeva daxil edilib.

**- Nazim müəllim, hazırki dövrədək komissiya hansı işlər görüb?**

- Komissiya ATU-da mövcud tədris proqramlarını yenidən təhlil etmək və konkret təkliflər hazırlamaq üçün vaxtaşırı iclaslar keçirir. Bu iclaslarda Tibb, Stomatologiya, Tibb bacısı, İctimai səhiyyə, Fizioterapist, Əczaçılıq ixtisasları üzrə mövcud proqramların müxtəlif aspektlərdən dəyərləndirilməsi aparılaraq rəy verilib.

**- Gələcəkdə hansı işlərin aparılması nəzərdə tutulur?**

- Universitetimizdə yeni ixtisasların açılması ilə bağlı kafedralardan daxil olan təkliflər incələnir və bu barədə müvafiq arayış hazırlanır. Həmçinin, bildiyiniz kimi, Təhsil Nazirliyinin 28.06.2020-ci il tarixli F-386 nömrəli qərarı ilə əsas (baza) ali tibb təhsilinin müxtəlif ixtisaslar üzrə təsdiq etdiyi təhsil proqramının 2025-ci ildə yenilənməsi nəzərdə tutulur. Bizim komissiya təsdiq etdiyi plan üzrə, kafedralarla əlaqə yaradaraq, yeni qəbul ediləcək standartlara dair təkliflər toplayır. Sonra bu təkliflər dəyərləndiriləcək və müvafiq qurumlar üçün tövsiyələr hazırlanacaq.

# Türkiyəli professorlar ATU-da

**Türkiyənin Bezmialem Vakıf Universitetinin Tibb fakültəsinin Tibbi biokimya kafedrasının müdiri, professor Abdurrahim Koçyiğit və Anatomiya kafedrasının professoru Mustafa Büyükmumcu Azərbaycan Tibb Universitetinin qonağı olublar.**



Qonaqlar ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasında olub, kafedra müdiri, dosent Anar Abdullayevlə görüşüblər. Onlara kafedranın tarixi, anatomiya fənninin tədrisinin təşkili və kafedrada aparılan elmi-tədqiqat işləri haqqında ətraflı məlumat verilib.

Sonra qonaq professorlar kafedrada fəaliyyət göstərən "İnsan anatomiyası" muzeyini gəzib, muzeydə saxlanılan unikal eksponatlarla yaxından tanış olublar. Türkiyəli professorlar ənənəyə uyğun olaraq, kafedranın qonaq dəftərinə öz ürək sözlərini yazıblar. Qonaqları ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov müşayiət edib. Görüşdə, həmçinin kafedranın əməkdaşları dosent Misir Bayramov və dosent Sədaqət Rüstəmova iştirak ediblər.

Daha sonra qonaqlar ATU-nun Bioloji kimya kafedrasının müdiri, professor Gülnarə Əzizova ilə görüşüb, tədris və elmi-tədqiqat məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

**ATU-nun Əczaçılıq toksikologiyası və kimya kafedrasının assistenti Kəmalə Bədəlova Pakistanın Lahor şəhərində yerləşən Lahor Universitetində keçirilmiş Səhiyyə Peşəkarlarının Beynəlxalq Sammitində (ISHP-2022) iştirak edib.**

# Əməkdaşımız Pakistandan qayıdıb

"Peşəkarlararası səy: Dərmanların kəşfindən əczaçılıq baxımına səyahət" mövzusunda keçirilən sammitdə Pakistanın müxtəlif şəhərlərindən və Türkiyə, Danimarka, Mərakeş, ABŞ, Avstraliya, İtaliya, İngiltərə, Fransa, Meksika, Misir və s. ölkələrdən 700-dən çox iştirakçı - aparıcı elm mərkəzlərindən və ali təhsil ocaqlarından olan alimlər öz elmi-tədqiqat işlərinin nəticələri haqqında maraqlı məruzələrlə çıxış ediblər.




ATU-nun əməkdaşı tədbirdə Beynəlxalq əsas məruzəçi (International keynote speaker) kimi iştirak edib. O, çıxışında Azərbaycan və Pakistan arasında qardaşlıq münasibətindən söz açaraq, 44 günlük müharibədəki qələbəmizdən danışıb.

Sammit çərçivəsində dekabrın 8-də gənc alim və tələbələrin çoxsaylı poster təqdimatları olub, K.Bədəlova sammitdə jüri üzvü olaraq iştirak edib. Dekabrın 9-da isə o, "Məhkəmə-kimyəvi analizində metallarla zəhərlənmə" mövzusunda geniş məruzə oxuyub.

Sammit günlərində universitet daxili müxtəlif elmi-tədqiqat laboratoriyalarına, kitabxanaya, universitet nəzdində olan xəstəxana və apteklərə baxış, müxtəlif elm adamları, rəhbər şəxslərlə görüşlər keçirilib. Lahor Universitetinin rektoru, professor Muhammad Aşraf Azərbaycan Tibb Universiteti ilə memorandum imzalanmasında maraqlı olduqlarını diqqətə çatdırıb. ATU-nun əməkdaşı bəzi şərtlər daxilində rəsmi sənəd əsasında Lahor Universitetinə köməkçi müəllim vəzifəsinə təyin edilib.

Tədbir yerli mətbuatda geniş işıqlandırılıb.

# Oftalmologiya kafedrası 100 yaşında

## Professor Paşa Qəlbinur: Bu gün Azərbaycan oftalmoloqlarının bayramıdır




**Dekabrın 23-də Azərbaycan Tibb Universitetində Oftalmologiya kafedrasının yaradılmasının 100 illiyinə, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor Ümnisə Musabəylinin 120 illiyinə, əməkdar elm xadimi, professor Zəhra Quliyevanın 100 illiyinə həsr edilmiş beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Konfransı giriş sözü ilə ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev açıb. O, son bir ayda universitetdə 4-cü yubiley tədbirinin keçirildiyini bildirib: "Universitetimizdə ənənəvi olaraq müəllimlərimizin və kafedralarımızın yubileyləri qeyd edilir. Bu tədbir də o sıradandır".

Prorektor kafedranın tarixindən söhbət açıb, milli kadrların elmi-pedaqoji istiqamətdə apardığı elmi araşdırmalar, onların Azərbaycan oftalmologiya sahəsinə verdiyi töhfələr və kadrların hazırlanması istiqamətində atılan addımlarla bağlı fikirlərini bölüşüb: "Oftalmologiya kafedrasına 22 il A.Trubin rəhbərlik edib. Milli oftalmoloqlarımızın yetişməsində onun müstəsna rolu olub. Bilirsiniz ki, bizim bu sahədə böyük alimlərimiz yetişib. Zərifə xanım Əliyeva akademik kimi həmin məktəbin yetirmələrindəndir. Həmin məktəbin bariz nümayəndələrindən biri də kafedraya 30 ilə yaxın rəhbərlik etmiş professor Ümnisə Musabəyli olub. O, 1932-ci ildə ilk dəfə olaraq Azərbaycan dilində göz xəstəlikləri ilə bağlı mühazirə deyib. Bir neçə il sonra isə ana dilimizdə dərs vəsaiti yazıb. Bu olduqca önəmli hadisə idi. 1945-ci ildə isə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü olub. Yaxşı xatirimdədir, Ümnisə xanım bir azərbaycanlı alim kimi xaricdə nüfuzlu konfrans və konqreslərdə iştirak edər, ingilis dilində mühazirələr deyərdi.

1975-ci ildə kafedraya professor Zəhra xanım Quliyeva rəhbərlik edib. 1972-ci ildən 1983-cü ilədək isə universitetimizi rektoru olub. Məhz onun rəhbərliyi ilə ölkəmizdə oftalmoloqlar ordusu yetişib. Hazırda Paşa Musayev Qəlbinur bu kafedraya uğurla rəhbərlik edir. Onun rəhbərliyi altında 25-ə yaxın elmlər doktoru və elmlər namizədi hazırlanıb. Hesab edirəm ki, kafedranın beynəlxalq əlaqələri olduqca genişdir. Bunun da universitetimiz üçün çox böyük əhəmiyyəti var".

Sonra Oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur çıxış edib. Professor bu əlamətdar günün Azərbaycan oftalmoloqlarının bayramı olduğunu deyib: "Kafedraya ilk vaxtlar İ.Varşavski, K.Orlov, A.Trubin rəhbərlik ediblər. A.Trubinin ən böyük xidmətlərindən biri Azərbaycanın milli kadrlarını hazırlaması olub ki, onların ən böyük nümayəndələrindən biri Ümnisə Musabəyli idi. Ümnisə xanımın ən böyük xidmətlərindən biri isə dünya və Azərbaycan oftalmologiyasına bəxş etdiyi akademik Zərifə xanım Əliyeva və professor Zəhra xanım Quliyeva olublar".

P.Qəlbinur kafedra barədə geniş məlumat verdikdən sonra kafedranın tarixi və fəaliyyətini əks etdirən sənədli film nümayiş olunub.

Sonra Türk Oftalmoloji Dərnəyinin fəxri sədri, professor Sunay Duman, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı çıxış ediblər.

Daha sonra ailə adından professor Z.Quliyevanın qızı, Oftalmologiya kafedrasının dosenti Səriyə Quliyeva çıxış edib. Yubiley tədbirinə görə universitet rəhbərliyinə və zəhməti keçən hər kəsə təşəkkürünü bildirən S.Quliyeva kafedranın fəaliyyəti haqda fikirlərini və anası ilə bağlı xatirələrini bölüşüb.

Sonda plenar sessiyalara start verilib.

İki gün davam edən tədbirdə yerli mütəxəssislərlə yanaşı, Rusiya və Türkiyədən gəlmiş alimlər də məruzələr oxuyublar.

# Beynəlxalq səviyyəli ekspert həkim-rezidentlərə mühazirə oxuyub

**Dekabrın 13-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) əməkdaşları Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında həkim-rezidentlərlə görüş keçiriblər.**



Görüş zamanı, həmçinin ADBTİA-nın tədrisi ingilis dilində aparılan həkimlər üçün "İdman tibbi və reabilitasiya" magistr proqramının rəhbəri, Böyük Britaniyanın UCL universitetinin professoru, UCL-in İdman, Fiziki Fəaliyyət və Sağlamlıq İnstitutunun (Institute of Sports, Exercise and Health) aparıcı eksperti, Böyük Britaniyanın Kral Tibb Cəmiyyətinin İdman Tibb Bölməsinin vitse-prezidenti, İdman Tibbi üzrə Avropa Standartının müəllifi, Beynəlxalq Olimpiya Komitəsinin tibbi eksperti, professor Maykl Pol Luzmor həkim-rezidentlərə "İdmanda beyin zədələnmələri" mövzusunda seminar keçib.

Seminarı açan klinikanın rezidentlərə məsul şəxsi, Uşaq cərrahlığı kafedrasının assistenti, t.ü.f.d. Namiq Xəlilov bu görüşün əhəmiyyətindən və professor Maykl Pol Luzmorun apardığı işlərin aktuallığından söhbət açıb. Bildirib ki, son illər universitetdə həkim-rezidentlər üçün bu cür seminarların keçirilməsi artıq bir ənənə şəklini alıb. Belə tədbirlərin baş tutmasına ATU və TCK rəhbərliyinin dəstək verdiyini deyən N.Xəlilov buna görə minnətdarlıq edib.

TCK-nın baş həkimi, ATU-nun Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının müdiri, professor Vəfa Pənahian qonaqları və tədbir iştirakçılarını salamlayaraq, ATU ilə ADBTİA arasında olan faydalı əməkdaşlıq əlaqələrindən danışıb, hər iki ali təhsil müəssisəsinin rəhbərliyinə təşəkkürünü bildirib.

Bundan sonra ADBTİA-nın Magistratura şöbəsinin müdiri Nərgiz Kosayeva "İdman tibbi və reabilitasiya" magistr proqramı haqqında ətraflı məlumat verib və proqramın rəhbəri M.P.Luzmoru iştirakçılara təqdim edib. Professor Maykl Pol Luzmor müasir tibb elminin idman sahəsinə inteqrasiyası, tətbiqi və istifadəsi, eləcə də bu proqramın üstünlükləri, həmçinin xarici mütəxəssislərin bu istiqamətdə tədris prosesinə cəlb edilməsi və digər məsələlər barəsində geniş çıxış edib.

Professor bildirib ki, həkim-rezidentlər üçün "İdmanda beyin zədələnmələri" mövzusunda oxuduğu mühazirəsi Böyük Britaniyanın London İmperial Kollecinin Laboratoriyası ilə birgə əməkdaşlıq edərək aparmış olduğu elmi tədqiqatlara əsaslanır. Məruzədə, əsasən idmançıların yarış zamanı aldıqları ağır beyin zədələnmələrinin vaxtında aradan qaldırılması və mütəxəssislərin tibbi reabilitasiya üsullarından düzgün istifadə etməsi qaydalarından bəhs olunur.

Diskussiya şəklində keçən seminarın aktivliyindən razı qalan professor M.Luzmor tədbirin sonunda iştirakçıların məruzəyə dair suallarını da cavablandırıb.

**Dekabrın 16-da Azərbaycan Tibb Universitetində III Cərrahi xəstəliklər kafedrasının 100 illiyinə həsr olunmuş "Cərrahi xəstəliklərin diaqnostikası və müalicəsində yeni üsullar" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**

# III Cərrahi xəstəliklər kafedrasının 100 illiyi qeyd olunub

## Kafedranın əməkdaşları istər II Dünya, istərsə də I və II Vətən müharibələri dövründə aktiv fəaliyyət göstəriblər




Konfransı universitetin Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov açıb. Bildirib ki, Tibb Universiteti 100 illik ənənələrə malik ali təhsil müəssisəsidir: "Universitetin elmi nailiyyətlər qazanmasında və inkişafında III Cərrahi xəstəliklər kafedrasının böyük rolu olub. Doğrudur, kafedra fəaliyyətinin 100 illiyini çoxdan qeyd etməli idi. Amma pandemiya dövrünə düşdüyü üçün bir az ləngidi. Kafedra ölkəmizdə tibbi kadrların, o cümlədən məşhur alimlərin, cərrahların yetişməsində müstəsna xidmətlərə malikdir. Adıçəkilən kafedraya 51 il akademik Mustafa Topçubaşov rəhbərlik edib. Məhz onun rəhbərliyi sayəsində Azərbaycanda tanınmış alimlər yetişib.

Kafedranın əməkdaşları istər II Dünya, istərsə də I və II Vətən müharibələri dövründə aktiv fəaliyyət göstəriblər. Kafedranın müdiri, professor Fariz Camalov və kafedranın əməkdaşları Vətən müharibəsində ön cəbhəyə yaxın hospitallarda yaralılara vaxtında yardım edib, neçə hərbçini həyata qaytarıblar".

Prorektor çıxışının sonunda ATU-nun rektoru, professor Gəray Gəraybəylinin adından Türkiyə və Rusiyadan gəlmiş qonaqları, o cümlədən iştirakçıları salamlayaraq, konfransı açıq elan edib.

III Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Fariz Camalov da qonaqları salamlayaraq, təşkil olunmuş konfransın əhəmiyyətindən söhbət açıb. Məruzəçilərin cərrahi xəstəliklərlə bağlı aktual məqamlara toxunacağını qeyd edib.

Kafedranın dosenti, qocaman alim Şəfa Əliyev kafedranın tarixi barədə konfrans iştirakçılarına geniş məlumat verib. Kafedraya rəhbərlik edənlər və bir yerdə çalışdığı alimlərlə bağlı xatirələrini dilə gətirib.

I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov, II Cərrahi xəstəliklər kafedrasının müdiri, professor Rauf Ağayev, Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev mövzu ilə bağlı fikirlərini səsləndiriblər.

Türkiyə və Rusiyadan təşrif gətirən qonaqlar da ATU ilə əməkdaşlıqdan, universitetin yetirmələrindən, elmi-təcrübi mübadilələr və əldə olunan nəticələrdən söhbət açıblar.

III Cərrahi xəstəliklər kafedrasının tarixi, fəaliyyəti, keçdiyi yol və nailiyyətlərini əks etdirən sənədli film nümayiş etdirildikdən sonra elmi məruzələrin dinlənilməsinə start verilib.

**ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları - şöbə müdiri, dosent Müşfiq Orucov, müdir müavini, i.ü.f.d. Nigar Ələkbərova və mübadilə proqramları koordinatoru Dünya Bayramova Xəzər Universitetində keçirilmiş Erasmus+ Məlumat Günündə iştirak ediblər.**

# Əməkdaşlarımız Erasmus+ Məlumat Günündə iştirak ediblər



Tədbirin məqsədi respublika ali təhsil müəssisələrinin beynəlxalq əməkdaşlığa məsul əməkdaşlarının Avropa Komissiyasının Erasmus+ proqramının imkanları haqqında məlumatlandırılması olub. Tədbirdə Milli Erasmus+ Ofisinin rəhbəri Pərviz Bağırov "2021-2027-ci illər Erasmus+ proqramının əsas xüsusiyyətləri və təkliflər üçün cari davam edən çağırışlar (CBHE, Jean Monnet, CBVET, EMJM/EMDM)", Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil şöbəsinin aparıcı mütəxəssisi Vüsalə Qurbanova "Ali təhsil sahəsində milli prioritetlər və Elm və Təhsil Nazirliyinin Erasmus+ proqramına dəstəyi", Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora "Xəzər Universitetində Erasmus+. Uğurlu qeydiyyat ərizəsinin hazırlanması" və həmin universitetin Həyat elmləri departamentinin əməkdaşı Cavid Ocaqi İsveç Kənd Təsərrüfatı Elmləri Universitetinin təsis etdiyi "Dayanıqlı istehsal və istehlak üçün heyvanların rifahı (HAnimSPAC) layihəsi" mövzularında çıxış ediblər.

**Bu gün bütün dünyada, eləcə də Azərbaycanda tiroid (qalxanabənzər) vəzin hormon azlığı ilə müşayiət edilən anadangəlmə hipotireoz aktual problem olaraq qalır. Amma yeni doğulan uşaqlara müalicə vaxtında təyin edilərsə, onlar həm fiziki, həm də əqli cəhətdən cəmiyyət üçün yararlı, tam normal insan olurlar. Yəni əsas problem diaqnozun vaxtında qoyulmamasında və yaxud çox gec qoyulmasındadır. Bu fikirləri II Uşaq xəstəlikləri kafedrasının assistenti, uşaq endokrinoloqu İlsur Novruzov "Təbib" qəzetinə açıqlamasında deyib.**

# Uşaqlarda şəkərli diabetə getdikcə daha çox rast gəlinir

## Anadangəlmə hipotireoz bütün dünyada aktual problem olaraq qalır



Onun sözlərinə görə, əgər diaqnoz 1 yaşından sonra qoyularsa, xəstənin fiziki cəhətdən müalicəsi mümkündür. Ancaq belə uşaqlar əqli cəhətdən yaşıdlarından çox geri qalır, məktəbdə normal oxuya bilmirlər. Yəni faktiki olaraq cəmiyyətdə özlərinə yer tapmırlar: "Bütün ölkələrdə, o cümlədən Azərbaycanda dərman terapiyasına böyük əhəmiyyət verilir. Doğum evlərində uşaq doğulan kimi 5 xəstəliyə görə test aparılır ki, onlardan biri də anadangəlmə hipotireozdur. Bu xəstəliyi vaxtında aşkarlamaq və müalicə etmək üçün topuq testinin aparılması vacibdir. Uşağın bir aylığına qədər müalicəyə başlanılır. Əlamətlərini uşağın ilk 3 ayında görə bilirik. Belə uşaqlar çox sakit olurlar, bütün günü yatırlar. Çox ləngdirlər, yemək hissiyyatları yoxdur. Bu əlamətlərə uşaq doğulandan fikir vermək lazımdır. Başqa bir əlamət göbək yarasının çox qalın olması və gec sağalmasıdır. Normal halda göbək 3-cü, 4-cü gün düşür, göbək yarası isə 5-10 günə sağalır. Belə uşaqlarda isə proses uzun, 1 aydan da çox çəkir.

Məlumdur ki, bütün uşaqlarda fizioloji sarılıq 2-ci gündən başlayır və 1 həftəyə keçib gedir. Amma bu uşaqlarda sarılıq 1 aydan çox uzanır. Qanda bilirubin yuxarı olmasa da, uşağa baxırsan ki, sapsarıdır. Səbəbi qaraciyər funksiyası zəif olduğuna görə iki molekulu A vitaminini əmələ gətirən karotin maddəsinin parçalanmaması, bədənə sarı bir rəng verməsidir. Həm də belə uşaqlar 4 kilodan çox çəki ilə doğulurlar".

Doğuş vaxtı da bəzi problemlərin ola biləcəyini söyləyən uşaq endokrinoloqu bildirib ki, vaxt ötdükcə valideyn uşağın böyük bayıra çıxmadığını müşahidə edir. Uşaq əsasən də psixi inkişafdan geri qalmağa başlayır: "Nevroloq yanına aparsalar da, müalicə fayda vermir. Dişlər normal böyümür. Saçlar çox seyrək, dəri quru, qarın böyük olur. Ona görə də belə uşaqlarda anadangəlmə hipotireoz kretinizm adlanan ağır patoloji proses inkişaf edir. Bunun səbəblərindən biri qadınlarda yod çatışmazlığıdır ki, indi bu haqda söhbət gedə bilməz. Çünki Bakı və ətraf kəndlərdə yod defisiti yoxdur. Həm də ölkəmizdə satılan duzlar yodlaşdırılır".

Həkim qeyd edib ki, çörək bişirilməsində işlədilən duzun, həmçinin ən zəngin meyvələrdən karalyok, xurma və qozun tərkibində də yod var: "Deməli, əsas səbəb uşaqlarda tiroid vəzinin qüsurlarıdır. Bəzi uşaqlar doğulanda həmin vəz ya ümumiyyətlə tipik yerində olmur, ya da tam başqa yerdə tapılır. Məsələn, dilin kökündə, döş sümüyünün arxasında. Xəstəliyin başqa bir səbəbi də tiroid vəzinin yerində olmasına baxmayaraq, böyüməsidir. Biz buna UR deyirik. Tiroid vəzi olmayanda aydındır, onun hormonları yoxdur və yaxud başqa yerdədir, funksiyasını tam yerinə yetirə bilmir. Vəz böyüdükdə isə hansısa bir ferment sistemində problemlər yaranır. Ona görə də uşağın bədənində çox vacib olan tiroid hormonlar çatışmır. Bu hormonlar xüsusən mərkəzi sinir sisteminin inkişafında böyük rol oynayır. Həmçinin sinirin üstündə yerləşərək impulsları mərkəzi sinir sisteminə ötürən mielin də çox vacib bir maddədir. Əgər mielin yoxdursa, impulslar çox zəif sürətlə ötürülür. Diaqnoz vaxtında qoyulduqda və tiroid hormonlar - əvəzedici terapiya təyin edildikdən 2-3 ay sonra uşaq tam normallaşır".

İ.Novruzov uşaqlarda şəkərli diabet hallarının təkcə Azərbaycanda deyil, bütün dünyada artdığını söyləyərək onu da vurğulayıb ki, uşaqlarda daha çox rast gəlinən I tip, yəni insulindən asılı olan şəkərli diabetdir. Bu da mədəaltı vəzdə proseslərin sürətlə getməməsi ilə əlaqədardır. İlk əlamətlər oqanizmdə insulin hormonlarının yalnız 80-90 faizi məhv olduqdan sonra üzə çıxır. Qanda qalan cəmi 10-20 faiz insulin şəkərdə qlükozanı normal tənzimləyə bilmir, şəkər qalxmağa başlayır. Bu zaman yanğı, sidiyə çox getmək, çox su içmək, gecə yerini islatmaq və çəkinin azalması kimi ilk əlamətlər özünü büruzə verir.

Müsahibimiz xəstəliyin profilaktika və müalicəsində müsbət dinamikanın müşahidə edildiyini də diqqətə çatdırıb. Xatırladıb ki, 10 il qabaq koma vəziyyətində olan xəstələr gətirilirdi, indi belə hallar yoxdur. Diaqnoz poliklinika səviyyəsində qoyulur. Həkimlər bu barədə çox məlumatlıdır. Pediatrlar uşaqları vaxtında həkim-endokrinoloqlara yönəldirlər. Ona görə də diabetik kəskinləşmələrə rast gəlmirik.

# Yol göstərən müəllim, yolu gedən tələbədir

**"Bu ildən universitetimizdə tələbələrin biliklərinin qiymətləndirilməsi (sərbəst işlərdən başqa) tam olaraq mərkəzləşdirilmiş qaydada İmtahan Mərkəzində aparılacaq. Uzun illərin müəllimi olaraq bu qərara müsbət yanaşıram". Bu fikirləri ATU-nun Farmakologiya kafedrasının dosenti Aydın Əliyev "Təbib" qəzeti üçün hazırladığı məqaləsində bildirib.**



Müasir təhsil sistemində yeni istiqamətlər və nəzərdə tutulan məqsədə çatmağın yolları barədə öz düşüncələrini açıqlayan A.Əliyev qeyd edib ki, ilk öncə orta məktəb ilə universitet təhsilinin məqsədi olan şagirdi və yaxud tələbəni oxutdurmaq və öyrətmək üsulları bir-birini tamamlamalıdır: "Orta məktəbdə öyrətmək daha çox oxutdurmaq üsuluna əsaslanır. Yəni müəllim ibtidai sinif şagirdinin əlindən tutmaqla onu hərf-hərf oxutdurur və öyrədir. Ali məktəbdə isə ikinci üsul əsasdır. Bu yerdə hörmətli rektorumuz, professor Gəray Gəraybəylinin universitetimizin qəzetində oxuduğum fikirlərini sitat gətirmək istərdim: "Əslində hər kəs anlamalıdır ki, müəllimlik təkcə tələbəni sorğulamaqla məhdudlaşmır. Müəllim istiqamət verəndir, yol göstərəndir. Tələbəni sıxmaq, incitmək müəllimin məqsədi olmamalıdır". Həqiqətən də elm və təhsil sahəsində ən əsas məsələ istiqamət verməkdir. Rektorun fikirlərindən də göründüyü kimi, müəllim mövzunu dərk etməyin istiqamətini verməklə, həm də nəticəyə çatmağın yollarını göstərir. Həmin yolu getmək isə artıq tələbənin seçimidir. Bəli, bu yolu getmək çətindir. Lakin tələbə bu çətinlikləri dəf edərək məqsədə çata bilər. Bu zaman tələbədə müvafiq elmi yaddaş formalaşar".

Tələbənin qiymət üçün deyil, məhz öyrənmək üçün ali məktəbə gəldiyini bir daha vurğulayan A.Əliyev əlavə edib ki, burada əsas yük də elə tələbənin üzərinə düşür: "Artıq tələbə düşünür ki, hər şey onun özündən asılıdır. Yəni o öz prinsipiallığı ilə seçilməyə başlayır və nizam-intizamı ilə yanaşı, həm də təhsil aldığı müəssisədə oxuyub- öyrənməklə həkim olmağın mümkünlüyünü dərk edir. Burada da məcburiyyət deyil, məqsədə doğru hərəkət edən düşüncə əsasdır.

Bu düşüncəni isə mən belə xarakterizə edərdim. Tələbələr evdə mövzu üzrə çalışarkən yaranmış hər hansı sualı əvvəlcə yoldaşları ilə, sonra isə müəllimlə müzakirə etsələr, bu zaman onlarda özlərinə inam hissi psixoloji olaraq güclənər. Bundan başqa, onlarda həm də indidən həkimliklə bağlı əsas düşüncə meyarlarından olan konsultasiya - iş mədəniyyəti formalaşar. Digər tərəfdən, tələbə mövzuları görməyi və fənlərarası əlaqəni öz düşüncəsində müəyyənləşdirib qurmağı bacarmalıdır. Yəni yetkin bir gənc həm də artıq onun üzərinə düşən maddi-mənəvi, ailə və dövlətçilik məsuliyyətindən irəli gələn yükü dərk edər. Bəli, ilk əvvəl tələbələrdən bu yolu getməkdə çətinlik çəkənlər az olmur. Lakin onlar müəllimin məqsədyönlü düşüncə və düzgün istiqamətlərə əsaslanan izahları ilə məqsədlərinə nail olurlar".

Müəllif sonda qeyd edir ki, müəllim mediator - yəni gətirəndir, tələbə isə reseptor - qəbul edən. Və uğurlu təhsil prosesində onlar bir-birini tamamlamalıdır.

**Qrip kəskin respirator virus infeksiyaları (KRVİ) qrupuna aid geniş yayılmış xəstəlik olub, ictimai səhiyyənin başlıca problemlərindən biri hesab edilir. Böyük qrip epidemiyaları orta hesabla 3 ildə bir dəfə baş verir, onlar adətən virusun yeni ştamları tərəfindən törədilir. Bir neçə il keçdikdən sonra antigen tərkibi oxşar olan ştamların yenidən sirkulyasiyası mümkündür.**

# Qrip mövsümi respirator infeksiyaların bir növü kimi



İnfeksiya hava-damcı və təmas-məişət yolu ilə ötürülür. Hazırda qripdən başqa, tənəffüs yollarını zədələyən 200-dən çox virus müəyyən edilmişdir. Onlar əsasən miksoviruslar, həmçinin rinoviruslar, koronaviruslar, adenoviruslar, enteroviruslar kimi təsnif edilirlər. Ümumiyyətlə, qripin proqnozu əlverişlidir və infeksiya öz-özünə yox olur.

Lakin qripin ağır formaları ölüm də daxil olmaqla, ciddi fəsadlara gətirib çıxara bilər. Ümumdünya Səhiyyə Təşkilatının göstəricilərinə əsasən, hər il qrip nəticəsində 3-5 milyon ağırlaşma, 290-650 min arasında ölüm halı baş verir. Ən yüksək ölüm göstəriciləri əsasən 2 yaşa qədər uşaqlarda və 65 yaşdan yuxarı şəxslərdə müşahidə olunur.

Qrip qəfil başlayan yüksək hərarət, mialgiya, başağrısı, halsızlıq, quru öskürək, boğaz ağrısı və burun tutulması ilə xarakterizə olunur. Ürəkbulanma, qusma və ishal daxil olmaqla mədə-bağırsaq simptomlarına da tez-tez rast gəlinir.

Qrip adətən kəskin şəkildə başlayır. İnkubasiya dövrü 1-2 gün təşkil edir, lakin 5 günə qədər davam edə bilər. Sonra kəskin klinik təzahürlər dövrü gəlir. Xəstəliyin şiddəti ümumi sağlamlıq vəziyyəti, yaş faktoru və xəstənin əvvəlcə bu tip virusla təmasda olub-olmamasından asılıdır. Bundan asılı olaraq xəstədə qripin 4 formasından biri - yüngül, orta, ağır və hipertoksik inkişaf edə bilər.

Virusla yoluxmadan adətən 5-7 gün sonra simptomlar özünü büruzə verir. Bütün yaş qrupları arasında, xüsusilə 6 aylıq və daha kiçik yaşlı körpələrdə ölüm faizi ağırlaşmış qrip olan şəxslərdə daha yüksəkdir.

Əksərən, virusun geniş sirkulyasiya etdiyi vaxtlarda klinik diaqnoz qoyulur. Xəstəxanaya yerləşdirilən xəstələrdən polimeraza zəncirvari reaksiya (PZR) müayinə metodu ilə sürətli antigen testi və ya immunofluoressensiya müayinəsi üçün tənəffüs yollarından yaxma götürülə bilər.

Sağlam şəxslərdə ağırlaşmamış xəstəliyin müalicəsi dəstəkləyici xarakter daşıyır və qızdırma əleyhinə preparatlar, adekvat maye qəbulu, istirahət tövsiyə edilir. Epidemiya zamanı digərlərinin yoluxmaması üçün yoluxdurucu dövr ərzində (simptomların başlamasından 5 günədək) xəstə insanların qapalı yerlərdə təcrid edilməsi nəzərdən keçirilməlidir. Qriplə mübarizənin ən effektiv üsulu profilaktikadır. Profilaktikanın əsasını isə il ərzində aparılan peyvənd təşkil edir. Bununla belə, yeni qrip virusu variasiyalarının ortaya çıxması səbəbindən vaksinlərin vaxtaşırı yenilənməsi lazımdır.

Qarışıq tip qripi olan şəxslərə antivirus müalicə kömək edə bilər. Müalicə - simptomlar aşkar edildikdən sonra 48 saat ərzində başlanırsa, daha effektiv təsir göstərir, ona görə də müayinələrin nəticələri açıqlandıqdan sonra gecikmək olmaz. Bir çox şəxslərdə ikincili bakterial infeksiyaları müalicə etmək üçün antibiotik terapiyanın aparılması zərurəti yarana bilər.

Beləliklə, günümüzün yüngül, mövsümi xəstəliyi hesab edilən qrip kifayət qədər ağır fəsadlara yol açmaqla, xəstələrin vəziyyətinin ağırlaşmasına gətirib çıxara bilir. Fikrimizcə, KRVİ ilə törədilən bu xəstəliyin müalicəsində mütləq şəkildə xəstənin fərdi xüsusiyyətləri, onun xroniki və ya kəskin xəstəliklərinin olub-olmaması, dərmanlara qarşı allergik reaksiyalar, xəstənin yaşı, sosial-iqtisadi vəziyyəti və digər amillər nəzərə alınmalıdır.

**Könül CƏFƏROVA**
*ATU-nun Yoluxucu xəstəliklər kafedrasının dosenti*

# Əməkdaşımız Şuşada “Ekoterrora yox!” deyib

**Dekabrın 12-dən etibarən Şuşada ekoloji fəallar, media və vətəndaş cəmiyyəti nümayəndələri, eləcə də sadə vətəndaşların iştirakı ilə sərvətlərimizin talanmasına, təbiətimizin sistemli şəkildə məhv edilməsinə etiraz əlaməti olaraq fasiləsiz aksiyalar keçirilməkdədir.**



Həmin aksiyada Pediatrik Kardiologiya və Revmatologiya ictimai birliyinin sədri, ATU-nun Ailə təbabəti kafedrasının assistenti, t.ü.f.d. Sveta Rəfiyeva da iştirak edib.

S.Rəfiyeva bildirib ki, aksiyada məqsəd ermənilər tərəfindən həyata keçirilən ekoloji terrorun qarşısını almaq, bölgədə separatizmin inkişafını önləmək, respublikamızın suveren ərazilərində Azərbaycanın nəzarətini təmin etməkdir: “Əsas məqsədimiz ölkəmizin suveren ərazisindəki yataqlarda monitorinqin aparılması üçün şəraitin yaradılmasına nail olmaqdır. Etirazçılar təbii sərvətlərimizin talanmasının, ekoloji çirklənmənin dayandırılmasını tələb edirlər”.

Sveta xanım “Ekoterrora yox!”, “Azərbaycan sərvətlərinin talanmasına yox!”, “Laçın dəhlizi sülh dəhlizidir. Soyğunçuluq, talan dəhlizi deyildir!” kimi şüarların yer aldığı aksiyaya qəlbinin çağırışı ilə qoşulub: “Doğrudan da soyuğa, yuxusuzluğa, yolun uzaqlığına baxmayaraq, mənəvi bir rahatlıq tapdım. Bu imkanı bizə yaradan QHT-lərə Dövlət Dəstəyi Agentliyinə təşəkkür edirəm.

Qoy ermənilər bilsin ki, biz sülh carçılarıyıq. Yolkəsən deyil, sülhə yol açanlarıq. Dinc ermənilər bizə xilaskarları kimi baxa bilərlər. Biz onları girov saxlayan, onlardan bir alət kimi istifadə edən quldur rejimi lənətləyirik. Mülki erməni əhali ilə heç bir problemimiz yoxdur. Bizim düşmənimiz ərazimizi talayanlar, qanunsuz silahlı quldurlardır”.



Söhbət əsnasında Pediatrik Kardiologiya və Revmatologiya İctimai Birliyinin yaranmasından da bəhs edən S.Rəfiyeva qeyd edib ki, təşkilat 2017-ci ildə təsis olunub və bu müddət ərzində bir sıra layihələr həyata keçirib: “Qaçqın və məcburi köçkün uşaqlarda kardioloji xəstəliklərin aşkara çıxarılması və bu xəstəliklə bağlı onların valideynlərinin maarifləndirilməsi, icbari tibbi sığorta ilə bağlı, COVID-19 infeksiyası zamanı regionlarda əhalinin tibbi ləvazimat və ərzaqla təmin edilməsi kimi layihələrimiz olub. Oktyabrın 12-dən başlayaraq, regionlarda ürək-damar xəstəlikləri və onların profilaktikası çərçivəsində "Ürəkləri qoruyaq" adlı növbəti layihəmizə start vermişik. Layihənin ilk tədbiri Şamaxı şəhərində uğurla nəticələnib. Qeyd edim ki, tərəfimizdən icra olunan bu layihə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə 9 regionda - Şamaxı, Ağdaş, Şirvan, Biləsuvar, Gədəbəy, Şəmkir, Kürdəmir, Astara və Lənkəranda həyata keçiriləcək”.

Məlumat üçün bildirək ki, təşkilatın layihələri QHT-lərə Dövlət Dəstəyi Agentliyinin mükafatlarına layiq görülüb.

# Klinik təfəkkür həkimin “iş aləti”dir

**Bu günlərdə İctimai fənlər kafedrasının əməkdaşları - professor Qoşqar Əliyev və dosent Fəridə Qəniyeva Əbu Əli İbn Sina adına Tacikistan Dövlət Tibb Universitetinin 70 illik yubileyi münasibətilə keçirilən beynəlxalq elmi-praktik konfransda iştirak ediblər. “Müasir təbabət: ənənələr və innovasiyalar” mövzusunda konfrans onlayn formada təşkil olunub.**

Əməkdaşlarımızın təqdimatında “Həkim fəaliyyətində şübhələnməyi unutma - prinsipi” mövzusu maraqla qarşılanıb. Çıxışda müasir həkimin tibbi biliklərlə yanaşı, yüksək intellektə, yaradıcı təfəkkürə malik olmasının, öz missiyasını aydın dərk etməsinin vacibliyi vurğulanıb.

Məruzədə deyilir ki, yüksək peşəkarlıq həkimə səhvləri aradan qaldırmağa kömək edən ilk şərtdir: “Bu, həkimin risk etmək hüququna və “ziyan vurma” prinsipi ziddi deyil. Əksinə, bir-birini tamamlayır. Dialektik yanaşma bir tərəfdə ziyan vurmamaq, digər tərəfdə xəstənin həyatını xilas etmək naminə əsaslandırılmış, yaxşı düşünülmüş risk tələb edir. Klinik təfəkkür həkimin “iş aləti”dir. Həkim qətiyyətliliyi və cəsarətliliyi ilə yanaşı, özündə bütün mürəkkəb və qeyri-standart hallarda şübhələnmək adətini tərbiyə etməli, lakin heç bir halda öz şübhəsini xəstəyə göstərməməlidir. O, xəstənin yatağı yanında cəsur və qətiyyətli olmalıdır.

Həkimin şübhəsi çox hallarda maraqlanılan məsələ barəsində əlavə məlumatın tapılmasının zəruriliyini tələb edir, bu isə son hesabda onun peşə təkmilliyini yüksəldir”.

Məruzədən sonra tədbir iştirakçıları əməkdaşlarımıza çoxsaylı suallar ünvanlayıblar.

# ATU-nun tələbəsi beynəlxalq konfransda məruzə ilə çıxış edib

**ATU-nun I Müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi Rəşad Abızadə Gürcüstanın Tbilisi şəhərində "Beynəlxalq multidisiplinar tibb və sağlamlıq elmləri” mövzusunda keçirilən beynəlxalq konfransda iştirak edib.**



Tələbəmiz "Piylənmədə mədənin selikli qişasının struktur elementlərinin ultrastruktur xarakteristikası" mövzusunda məruzə (ingilis dilində) ilə çıxış edib. Araşdırmanın elmi rəhbəri ATU-nun Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov, t.ü.f.d. Taryel Ömərov və b.ü.f.d Fuad Rzayevdir. Belə ki, piylənmənin cərrahi müalicəsi olan mədənin boylama rezeksiyasında xaric edilmiş rezektatdan nümunələr götürülmüş və Transmission Elektron Mikroskopunda (JEM-1400) tədqiq edilmişdir. Araşdırmalar zamanı parietal hüceyrələrdə baş verən ultrastruktur dəyişikliklər qeyd olunmuşdur. Tədqiqatın nəticəsinə əsasən, nümunələrin 45%-də xroniki qastrit və HCl turşusunun sintezində iştirak edən parietal hüceyrələrin sayında və ölçüsündə iki dəfə artım müşahidə olunmuşdur. Məruzə konfrans iştirakçıları tərəfindən maraqla qarşılanmış, mövzu ətrafında müzakirə aparılmış, günümüzün əsas problemi olan piylənmə haqqında araşdırmanın elmi və praktiki baxımdan çox vacibliyi vurğulanmışdır.

12 ölkədən - Türkiyə, Ruminiya, Xorvatiya, Serbiya və s. nümayəndələrin qatıldığı tədbir Tbilisi Dövlət Tibb Universiteti, Georgia Science, İKSAD – Türkiyə və World Health İnstitute - Birləşmiş Krallıq tərəfindən təşkil olunub. Konfransda müzakirə edilmiş mövzuların nəticələri müxtəlif beynəlxalq indeksləmə bazalarına daxil olan jurnalda işıq üzü görəcək.

Qeyd edək ki, tədbirin sonunda tələbəmiz beynəlxalq sertifikatla təltif olunub. Tələbəmizin konfransda iştirak xərci Azərbaycan Tibb Universiteti tərəfindən qarşılanıb.

## Dünyadan bizimkilər

# Azərbaycanın israilli vurğunu

**Ölkəmiz haqqında hələ Azərbaycan Tibb Universitetinə daxil olmamışdan öncə çox eşidib. Xalqımızın mehriban, qonaqpərvər, mərhəmətli olması barədə qohum-əqrəba, dost-tanışı həmişə ağızdolusu danışıb. Gəlin onu tanıyaq: İsraildən gəlmiş tələbəmiz Hazem Riad oğlu Şveiki.**



Deyir, Azərbaycana gəlməmişdən bilirdim ki, ölkənizə Odlar Yurdu deyirlər: “Qədim tarixə malik olmağınız barədə də məlumatım var idi. Amma eşitmək ayrı, görmək ayrı. Həkim olmaq arzum məni sizin vətənə gətirdi. İnternet vasitəsi ilə də maraqlandım. Gördüm ki, şərtlər uyğundur. Tibb Universitetində oxumağa qərar verdim və verdiyim qərardan peşman deyiləm”.

Hazem 6 ildir Azərbaycan Tibb Universitetinin II Müalicə-profilaktika fakültəsində təhsil alır. İnsanlarla münasibət qurduqca, əyalətləri gəzdikcə, təbiəti seyr etdikcə, daha çox sevməyə başlayıb Azərbaycanı. Müəllimlərindən, tədris olunan dərslərdən, klinikalarda əldə etdiyi təcrübədən, dostlarından razıdır. Dostlarıgilə qonaq da gedib.

Tələbəmiz deyir ki, mətbəxiniz çox zəngin, yeməkləriniz, salatlarınız dadlıdır: “Yeməkləriniz arasında ən çox xoşuma gələn buğlama oldu. Kababların, xəngəlin də ayrı ləzzəti var. Üstü qiyməli-qurutlu yarpaq xəngəlini soyuq havada yesən, heç vaxt uduzmazsan. Xəngəlin üstündən həlimini içsən, yediyin sənə əziyyət verməz. Meyvə və tərəvəzlərinizə də söz ola bilməz. Çeşidli salatlarınız da diqqətimi çəkdi. Amma “çoban salatı” mənim üçün salatların şahı oldu”.

Hazem Bakıdan da danışdı, Şəkidən də. Oxuduğu 6 il müddətində gəzdiyi bəzi yerlərin adını çəkdi. Azərbaycanın aranında da olub, dağında da, amma ən çox xoşuna gələn Gəncə və Göygöldür: “Qədim Gəncə və dahi şair Nizami Gəncəvi haqqında da eşitmişdim. Nizaminin “Xəmsə”si dünyada məşhurdur. Onun ibrətamiz kəlamlarından oxumuşdum, mənə təsir etmişdi. Çox istəyirdim, belə bir şəxsin məqbərəsini ziyarət edim. Axır ki, nəsib oldu. Göygöl isə təbiətin möcüzəsidir. Çox ecazkar gözəlliyə malikdir. Təbiət hadisəsi nəticəsində yaranan bu gölə baxdıqca doymursan. Maralgöl də başqa bir aləmdir. Sanki rəssam təbiətə burada öz qələmini çəkib. Bakıda isə Qız Qalasının üstünə çıxmaq, oradan şəhəri, Xəzəri seyr etmək insana bir rahatlıq verir. Yanardağ da bir ayrı möcüzədir. Əsrlərlə bu dağ yansa da sönmür”.

Hazem Azərbaycanı “Möcüzələr diyarı” adlandırır. Bu il universiteti bitirsə də, Bakıdan ayrılmaq istəmir. Burada qalmaq və ya getmək qərarını hələ tam verməyib. Deyir, bunu gələcək göstərər, planları baş tutsa, ölkəmizdə qalmaq onun üräyincədir.

# Tibb işçiləri Antalyada toplanıb



**Dekabrın 15-18-də Antalyada "Türk Sağlık - Sen, İşyeri Temsilçileri" birliyinin dəyərləndirmə toplantısı keçirilib. Toplantıda Azərbaycan Tibb Universiteti də daxil olmaqla, ölkəmizin səhiyyə sənayesinin nümayəndələri iştirak ediblər.**

Tədbir səhiyyə işçilərinin sosial problemləri, işçi hüquqlarının təminatı və digər məsələlərə həsr olunub. Tədbirdə Azərbaycan nümayəndələri də çıxış ediblər. Toplantı iştirakçıları Qarabağ zəfərinin bütün Türk dünyasının zəfəri olduğunu bildirərək, daim Azərbaycana dəstək olacaqlarını qeyd ediblər.

Toplantıda ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, II Uşaq xəstəlikləri kafedrasının müəllimi dr. Qoşqar İsmayılov, THİK təşkilat şöbəsinin müdiri Elnarə Muradova, THİK MHT institutunun MHİK sədri Əfsanə Məmmədova, TİNM HİK sədri Yeganə Sultanova iştirak ediblər.

# Tələbələr Miniatür Kitab Muzeyində olub

**Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin 20 tələbəsi dünyada ilk və yeganə olan Miniatür Kitab Muzeyinə ekskursiyaya gedib.**

Nadir miniatür kitablar tələbələr tərəfindən böyük maraqla qarşılanıb.

Qeyd edək ki, ziyarət universitetin Tələbə Gənclər Təşkilatının "Muzeyləri birlikdə tanıyaq" layihəsi çərçivəsində baş tutub.

# Tələbə teatr klubunun tamaşasında anşlaq

## Və ya "4 divar arasında"kı ağır söhbətlər maraqla qarşılandı



**Dekabrın 21-də ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən teatr klubunun hazırladığı "4 divar arasında" tamaşası səhnəyə qoyulub. Dilbər Rahimin ssenari müəllifliyi və rejissorluğu ilə məişət-psixoloji janrda səhnələşdirilən tamaşanın bədii rəhbəri Elbəy Cabbarlı, köməkçi rejissoru Zəhra Həsənli, işıq rejissoru Zəhra İbrahimova və səs rejissoru Rahil Əhmədovdur.**

Tamaşadan öncə THİK sədri Qoşqar İsmayılov və "Təbib" idman klubunun sədri Qələndər Aslanov çıxış edərək teatr klubunun komandasına, həmçinin kütləvi tədbirlərin daimi aparıcısı Əli Əliyevə təşəkkürlərini bildiriblər. Tamaşanın anşlaqla keçməsini tələbələrin öz dostlarına, onların zəhmətinə verdikləri qiymətin göstəricisi kimi dəyərləndirərək, yaradıcı heyətə uğurlar arzulayıblar.

Bundan sonra müəyyən problemlərin tamaşaçılarla birlikdə həllinə fokuslanan tamaşanın premyerası başlayıb. Emin Sabitoğlunun bəstələri ilə müşayiət olunan tamaşa müxtəlif vaxtlarda birotaqlı evə köçən 4 fərqli ailədə cərəyan edən hadisələrdən bəhs edir. Tamaşanın məqsədi ayrı-ayrı psixoloji vəziyyətlərdə, eləcə də məişətdə qarşılaşdığımız qadın-kişi münasibətlərinin və digər məsələlərin həlli yollarını axtarıb tapmaqdır.

4 pərdədən ibarət tamaşanın ilk pərdəsində söhbət bir yazıçı ailəsindən gedir. Qızları itirəndən sonra bu cütlüyün həyatlarında baş verən dəyişikliklər ön plandadır. Tamaşaçının diqqəti qadın-kişi münasibətlərində gedən narsisizmə və qadın haqlarının pozulmasına yönəldilir.

Sonrakı pərdədə pulun insan həyatına gətirdiyi dəyişikliklərə, qadın həyatına təsir göstərən amillərə və ana-qız münasibətlərinə toxunulur.

Ailə əlaqələrinin insanın sonrakı yaşlarında təsirləri isə 3-cü pərdədə öz əksini tapır. Bunun hətta psixoloji problemlə nəticələnə biləcəyi də göstərilir. Tamaşanın finalında artıq bir neçə cəhətdən dağılmış ailə ilə qarşılaşırıq. Təkuşaqlı ailə də olsa, burada əsas problem bir-birini başa düşməməkdən və ya səhv başa düşməkdən qaynaqlanır.



Tamaşa boyu istər aldatma, istərsə də qadın, kişi yollarının cəmiyyətdə necə təhrif olunmasını görürük.

Tələbə aktyorlar Səid Quliyev (İlqar), Şəfa Qarayeva (Ofeliya), Aytac Vəliyeva (Vəfa), Ruqiyyə Əmrahlı (Lətafət), Leyla Cavadova (Təranə), Nicat Əsədov (Bəxtiyar), Mirhəsən Cəfərov (Ziya), Rüstəm Quliyev (Arif), Misir Quluzadə (O), Nərmin Məmmədyarova (Firuzə), Gülgün Oktay (Bəyaz), Elbəy Cabbarlı (Yaşar), Dilbər Rahim (Həyat) və Aygün Abbasova (ev sahibi) öz rollarını məharətlə oynayaraq, alqışlar qazanıblar.

Tamaşanın cəmiyyətə ümumiləşmiş mesajı ev sahibinin dilindən verilib, nəticə çıxarmaq isə tamaşaçının ixtiyarına buraxılıb: "Mən 27 ildir bu evi kirayə verirəm. Sizdən əvvəl bu evdə 4 ailə qalıb. Hamısı da bir-birindən fərqli idi. Bir bilsəniz, bu divarlar var ha, nələr eşidib, nələr duyub?..

Biri gəldi, ərindən yarımadı. O birisi gəldi, anasından yarımadı. Biri də özündən yarımadı, bunlar da bir-birindən. Yenə bu 4 divar, yenə mən. Siz siz olun, 4 divar arasında qalmayın".

Sonda tamaşa salonunda böyük izdiham yaradan izləyicilərə və gecələrini gündüzlərinə qatıb ssenariyə bağlı qalan aktyorlara təşəkkürünü çatdıran Dilbər Rahim bir məqama da toxunaraq, səhnədəki tələbələrin tibbi savadlarının yüksək olduğunu vurğulayıb: "Onlar Tələbə Elmi Cəmiyyətinin işində xüsusi fəallıq göstərən, eyni zamanda təqaüdçü tələbələrdir. Yəni yanlış təsəvvür yaranmasın ki, səhnəyə bekarçılıqdan gəliblər. Ona görə də aramızda olmaq istəyən bütün tələbələri gələcək tamaşalarımızda gözləyirik".

Qeyd edək ki, ATU-nun tələbə klubu 2018-ci ildən fəaliyyət göstərir. İlk tamaşası "Mahmud və Məryəm" olan klub sonralar "Nişanlı qız", narkomaniya mövzusunda "Bir idmançının taleyi" və 44 günlük Vətən müharibəsində şəhid olmuş hərbi həkimlərimizə həsr edilmiş "Həkim şəhid Ceyhun" tamaşalarını səhnələşdirib. Tələbələrin həm asudə vaxtının idarəolunması, həm də bir həkim kimi həyata hazırlanmaları baxımından teatr klubunun müstəsna rolu var.

# Stritbol və şahmat turniri keçirilib



**ATU-nun Tədris İdman Kompleksində Nəsimi rayon Gənclər və İdman İdarəsinin dəstəyi və "Təbib" idman klubunun təşkilatçılığı ilə tələbələr arasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş stritbol (basketbol) və şahmat turniri keçirilib.**

Stritbol turnirində ATU-nun 5 fakültəsindən 20 idmançı tələbə iştirak edib. Dairəvi sistemlə keçirilən oyunlarda Stomatologiya fakültəsinin tələbələri I yerə, II Müalicə-profilaktika fakültəsinin tələbələri II yerə və I Müalicə-profilaktika fakültəsinin tələbələri III yerə layiq görülüblər.

Şahmat turnirinə isə 26 nəfər tələbə idmançı qatılıb. 7 turun nəticəsinə görə qaliblər müəyyənləşib. Qızlar arasında I yeri Fatimə Məmmədova, II yeri Nuranə Rəhimli, III yeri Nərmin Həşimli, oğlanlar arasında isə I yeri Abusəddin Mollayev, II yeri Zaur Babayev, III yeri Fərid Məlikov qazanıb.

Sonda qaliblər Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin diplom, medal və kuboku ilə mükafatlandırılıblar.

# Futzal turniri yekunlaşıb



**Dekabrın 13-dən ATU tələbələri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş futzal turniri dekabrın 23-də final yarışı ilə yekunlaşıb. Turnir "Təbib" idman klubu və Nəsimi rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilib.**

"Təbib" idman klubunun sədri Qələndər Aslanov bildirib ki, turnirin təşkilində əsas məqsəd Heydər Əliyev irsinin tələbələrə aşılanması və Azərbaycan Tibb Universitetində futzal idman növünün təbliğinə və inkişafına nail olmaqdır: "Çünki belə yarışlar universitet tələbələri içərisindən perspektivli gənclərin aşkarlanaraq futzal üzrə yığma komandaya cəlb edilməsinə zəmin yaradır. Eyni zamanda ATU tələbələrinin futzal üzrə yığma komandası formalaşır və həmin komandanın yarışlarda iştirakı təmin olunur".

Daha çox tələbənin iştirak etməsi üçün turnir fakültələr arasında deyil, qruplar arasında keçirilib. Beləliklə, yarışlara 14 komandada təmsil olunmaqla 120 tələbə qatılıb ki, onların da çoxu Hərbi tibb fakültəsində təhsil alanlardır.

Final mərhələsində 3 komanda yarışıb. Stomatologiya fakültəsini təmsil edən komanda I yerə layiq görülüb. Hərbi tibb fakültəsinin 2 komandası isə II (622A1a) və III (622A4c) yeri bölüşüblər.

Qalib komandaların üzvlərinə xüsusi diplomlar təqdim edilib.

# Əcnəbi tələbələrimiz bilik yarışında

**Universitetimizdə təhsil alan xarici tələbələr arasında praktiki bilik üzrə yarışma keçirilib. Tədbir ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsi və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təşkilatçılığı ilə baş tutub.**



Məqsəd aşağı kursda təhsil alan əcnəbi tələbələrin ilkin yardımın göstərilməsi üzrə baza biliklərini yoxlamaq və bu bacarıqları gücləndirmək olub. Müsabiqədə ATU-nun İran, İraq, Hindistan, Efiopiya, Latın Amerikası ölkələri, Türkiyə, Afrika, Birləşmiş Ərəb Əmirlikləri, Suriya, Fələstin, Pakistan, Sudan, Misir və digər ölkələrdən olan tələbləri iştirak ediblər.

Yarışmadan öncə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) təmsilçisi Əminə Cabbarova qurumun fəaliyyəti haqqında tələbələr üçün təqdimat keçirib. Həmçinin iştirakçılara GFARC tərəfindən beynəlxalq səviyyəli ilkin tibbi yardım üzrə protokollar haqda məlumat verilib.

Sonra komandalar arasında yarışma keçirilib. Tələbələr həyatı xilas etməyə səbəb olan bacarıqlar - yaralanmalar və zədə almalar, zəhərlənmələr, günvurma zamanı göstərilən ilkin yardım, ürəyin masajı və s. bacarıqları mulyaj və maketlər üzərində nümayiş etdiriblər. Sonda qalib komandaya hədiyyə, müsabiqə iştirakçılarına isə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, ATU THİK-in sədri dr. Qoşqar İsmayılov, Tədris Terapevtik Klinikanın Təcili yardım şöbəsinin müdiri dr .Cavanşir Məhərrəmov, həkim-pediatr dr. Zərifə Məmmədova və AzQAC-ın İlk Yardım əməkdaşları - dr. Şahin Biləndərli və dr. Əminə Cabbarova münsiflər qismində tələbələrin bacarıqlarını qiymətləndiriblər. Tədbirin təşkilində ATU THİK nəzdində "Beynəlxalq Tələbələrin Səsi" (Voice of International Students) birliyinin sədri Rz. Şafa Mohamed də aktiv iştirak edib.

## Allah rəhmət eləsin!

Əczaçılıq fakültəsinin dekanlığı, fakültə Həmkarlar Təşkilatının kollektivi və Farmakologiya kafedrasının əməkdaşları Farmakologiya kafedrasının dosenti

**Sevinc Quliyevanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın Həmkarlar Təşkilatının sədri, dosent Misir Bayramova bacısı

**Şövkət İsmayıl qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın müəllimi

**Xumar xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qidalanma və tibbi ekologiya kafedrasının əməkdaşları kafedranın dosenti Fəridə Əliyə əzizi

**Məhəmmədəli Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının əməkdaşları kafedranın preparatoru Afət Mustafayevaya qardaşı

**Coşqun Mustafayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Uşaq cərrahlığı kafedrasının əməkdaşları kafedranın assistenti Müşfiq Bağırova anası

**Südabə Həsən qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## Etibarsız sayılır

Behruz Abedini Zəhra Hamid qızının (qrup 421İ2a) tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Azərbaycan Nəşriyyatı" MMC-də çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 3821
Sayı 2250